*MİR CƏLAL PAŞAYEV*

# ZİYARƏTƏ ÇEVRİLMİŞ ÜNVANLAR

II HİSSƏ

BAKI - 2013

**Müəllif və tərtibatçı:**

*Nüşabə Şamilqızı*
*Nataliya Şneyder*

**Redaktor:**

*Ləman Əliyeva*

*"Ziyarətə çevrilmiş ünvanlar"*

*“Mən elə bir ailədə doğulub böyümüşəm ki, orada qohumluq əlaqələri və ailə dəyərləri sarsılmaz olub və indi də belədir. Mənim babam Mir Cəlal Paşayevin ailəsi Azərbaycanda yaxşı tanınmış, ədəbiyyatda, jurnalistikada, habelə ölkənin ictimai həyatında iz qoymuşdur. Belə bir ailədə doğulmaq mənim üçün xoşbəxtlikdir”.*

**Mehriban Əliyeva**

*"Zəmanəmdə tərəfimdən xəlq olunmuş
ən görkəmli əsər - mənim ailəmdir".*

Mir Cəlal Paşayev



XX əsr bəşəriyyətə çox görkəmli elm və mədəniyyət xadimləri, dahi şəxsiyyətlər bəxş etmişdir. Bu gün biz fəxrlə deyə bilərik ki, dahi şəxsiyyətlərin və böyük insanların yaradıcılığı ilə tarixi salnamələrin yaradıldığı qüdrətli bir dövlətin vətəndaşıyıq. Ölməz sənətkar, görkəmli alim, yazıçı və pedaqoq, XX əsr Azərbaycan elminin, ədəbiyyatının, təhsilinin inkişafında misilsiz xidmətlər göstərmiş Mir Cəlal Paşayev məhz belə şəxsiyyətlər sırasında önəmli yer tutur.

Şübhəsizdir ki, Azərbaycan ədəbiyyatının təşəkkülündə və inkişafında Mir Cəlal Paşayevin xidmətləri da-

nılmazdır. O, yaradıcılığa erkən yaşlarda başlamış, öz istedadı və əməyi sayəsində görkəmli yazıçı, ədəbiyyatşünas-alim və fəal ictimai xadim dərəcəsinə qədər yüksəlmişdir. Onun əsərlərində xalqın müasir həyatının canlı lövhələri, sadə əmək adamının mənəvi-əxlaqi sifətləri, arzu və düşüncələri ilə yanaşı, müasir cəmiyyətdə baş verən mühüm hadisələr, dövrün əsas meyilləri öz parlaq təcəssümünü tapmışdır. Ona görə də Mir Cəlal Paşayevin əsərləri ölkəmizin hüdudlarından kənarda da milyonlarla qədirbilən oxucuların ürəyinə yol tapmış, əxlaqi cəhətdən daha da zənginləşməsinə kömək etmiş, sevinc mənbəyinə çevrilmişdir. Mir Cəlal Paşayevin idrakı, maraq dairəsi geniş, çoxşaxəli və zəngin olmuşdur. Coşqun dəryanın şahə qalxan, bir-birinə bənzəri olmayan əzəmətli dalğaları kimi onun yarım əsr müddətində yaratdığı əsərlərini də bütövlükdə, bir baxımda təsəvvür etmək çətindir.

Söz ustası, nasir bütün həyatını ədəbi, elmi və ictimai-pedaqoji fəaliyyətə həsr etmişdir. O, ölməz nəsr əsərləri, elmi dəyərini itirməyən monoqrafiyalar yaratmış, yeni ədəbiyyatşünas və pedaqoji kadrlar yetişdirmiş, daima doğma xalqının milli-mənəvi yüksəlişinə çalışmışdır.

Görkəmli xadim Mir Cəlal Paşayevin ömür yoluna və çoxşaxəli elmi-ictimai fəaliyyətinə nəzər saldığımız zaman bu dahi şəxsiyyətlə fəxr etməmək mümkün deyil.

Mir Cəlal Əli oğlu Paşayev 1908-ci il aprel ayının 26-da Cənubi Azərbaycanın Əndəbil kəndində dünyaya göz açmışdır. O, Əndəbil kəndinin ən möhtərəm və hörmətli sakini olan Mir Paşa bəyin nəvəsi idi. Atası Mir Əli Mir Əşrəfi mülkiyyət sahibi olduğundan böyük oğullarına – Mir Cəlalın özündən böyük dörd qardaşına Əndəbil kəndinin işlərini idarə etməyi tapşırmış, ən kiçik, beşinci oğlu Mir Cəlalı isə bu işlərdən uzaqlaşdırıb təhsil



dalınca Şimali Azərbaycana, Gəncəyə gətirmişdi. 1918-ci ildə acı tale 10 yaşlı Mir Cəlalı erkən yaşlarında atasız qoydu. Vəfat etməmişdən bir qədər əvvəl Mir Əli böyük oğullarına kiçik Mir Cəlalı tapşıraraq demişdi: "Bu uşağı oxudun, onun mükəmməl təhsili olsun". Beləliklə, Mir Cəlal Gəncə şəhərində qalıb təhsilini davam etdirir, uşaqlıq və gənclik illərini burada keçirir.

Mir Əli öz oğlunu Gəncə şəhərinə doğma ana dilində təhsil almaq arzusu ilə gətirmişdi. Balaca Mir Cəlal atasının son arzusunu, istəyini həyata keçirməklə kifayətlənməyib, ümidləri doğruldaraq böyük yazıçı, alim və böyük insan adını qazandı. Buradan aydın görünür ki, Mir Cəlalın yaradıcılıq fəaliyyətində Gəncə mühitinin böyük rolu olmuşdur.

Mir Cəlal Tanrının mərhəməti sayəsində öz yolu ilə böyük inamla addımlaya bilmişdir. Bütün çətinliklərə baxmayaraq o, 1918–1919-cu illərdə xeyriyyə cəmiyyətinin köməyi ilə təhsilini davam etmişdir. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra 1924–28-ci illərdə Gəncə Darülmüəlliminə daxil olmuş, 1926–1927-ci illərdə Tələbə Təşkilatının, sonra isə Şəhər Tələbə Həmkarlar Təşkilatının sədri seçilmişdir. 1928-ci ildə Darülmüəllimi bitirib, Gədəbəy yeddiillik məktəbində müəllimlik edərək milli ədəbiyyatımızı, mədəniyyətimizi, zəngin keçmişimizi gənc nəslə aşılaya bilmişdir.

Görkəmli nasir, ədəbiyyatşünas, alim və pedaqoq Mir Cəlal Paşayev müasir Azərbaycan ədəbiyyatının bünövrəsini qoyanlardan biri olmuşdur. O, şərəfli ömrünün əlli ili müddətində bədii yaradıcılıq fəaliyyətində zirvələri fəth edərək zəngin ədəbi irs yaratmışdır. Belə ki, 1928-ci ildə bir yazıçı kimi yaradıcılıq fəaliyyətinə başlayan Mir Cəlal Paşayev, elə həmin ildə ilk tədqiqat əsərini yazmışdır. Onun ədəbiyyat nəzəriyyəsinə dair araşdırmaları, xüsusilə məşhur "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi Azərbaycanın zəngin ədəbiyyat tarixində mühüm yer tutmuşdur. Ədibin "Klassik irs və müasirlərimiz"ə dair məqalələri, monoqrafik tədqiqatları, "Azərbaycanda ədəbi məktəblər" mövzusunda yazdığı doktorluq dissertasiyası, "Füzuli sənətkarlığı", "Cəlil Məmmədquluzadə realizmi haqqında" və sair əsərləri daima xalqın ruhunu və zövqünü qidalandırmış, saf mənəvi aləmi, aydın məfkurəni, sabaha dərin inamı, hər cür şərə odlu nifrəti təcəssüm etmişdir.

Ədəbi yaradıcılıqla yanaşı elmi fəaliyyətini müvəffəqiyyətlə davam etməkdə israrlı olan Mir Cəlal Paşayev 1929-1930-cu illər ərzində 1 №-li Gəncə şəhər məktəbində direktor vəzifəsində fəaliyyətindən sonra 1930-cu ildə Kazan Şərq Pedaqoji İnstitutunun Dil-ədəbiyyat fakültəsinə, 1932-ci ildə Bakıya qayıdaraq Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun aspiranturasına daxil olmuşdur. "Kommunist", "Gənc işçi" qəzetlərində fəaliyyət göstərməklə "Sağlam yollarda" adlı ilk kitabını çapdan çıxarmışdır.

Eyni zamanda 1933-cü ildə o, SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin İctimai elmlər bölməsində kiçik elmi işçi vəzifəsində çalışmışdır.

1935-ci ildə aspiranturanı bitirdikdən sonra Umumittifaq Sovet Yazıçıları briqadasının tərkibində Ağ dəniz-



*Mir Cəlal Gəncədə 1 nömrəli şəhər məktəbinin kollektivi ilə. 1929-cu il.*

Baltik kanalında yaradıcılıq ezamiyyətində olmuşdur.

1936-1941-ci illər ərzində V.İ.Lenin adına APİ-də və S.M.Kirov adına ADU-da müəllimlik etmişdir. 1940-cı ildə "Füzulinin poetik xususiyyətləri" adlı əsərini müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. Mir Cəlal füzulişünaslıqda ilk dəfə olaraq dahi şairin yaradıcılığını müəyyən mövzular üzrə qruplaşdırmış və sonrakı tədqiqatçılar üçün bu mənada sanki sistemli bir kompozisiya yaratmışdır. "Başlanğıc" hissəsindən sonra gələn fəsillərin adlarına nəzər salaq: "Füzuli şeiri haqqında", "Qəzəllər haqqında", "Bədii dil xüsusiyyətləri", "Mənzərələr", "Şeir mədəniyyəti-texnika", "Bədii məntiq", "Lirika", "Bədii nəsr", "Rind və Zahid", "Nizami və Füzuli", "Ölməz məhəbbət dastanı", "Füzulidə alleqoriya", "Böyük mənəvi müasirimiz". "Füzuli sənətkarlığı" (kitabın sonradan təkmilləşdirilmiş nəşrinin adı belədir) monoqrafiyası həqiqətən də həm Azərbaycanda, həm də xaricdə (xüsusilə Türkiyədə) dahi şairə həsr edilən ən

sanballı əsərlərdən biri olmuşdur. Əsər yazılış tərzi etibarilə yalnız elmi mühakimələrdən ibarət deyildir. Burada dərin elmi mühakimələrlə yanaşı, hissi-emosional üslub tərzinin də öz yeri var və bu cəhət, monoqrafiyanın elmi sanbalını daha da artırır.

1944-1960-cı illər ərzində Mir Cəlal Paşayevin yorulmaz fəaliyyəti SSRİ EA Azərbaycan filialının Ədəbiyyat və Dil İnstitutunun Sovet ədəbiyyatı şöbəsinin müdiri və S.M.Kirov adına ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasında dosent, 1948-ci ildə professor, 1961-ci ildə isə müdir vəzifəsində çalışması ilə davam etmişdir.

O, 1947-ci ildə "Azərbaycanda ədəbi məktəblər" əsərinə görə filologiya elmləri doktoru alimlik dərəcəsinə qədər yüksəlmişdir.

Mir Cəlal Paşayev ədəbiyyatımızın zənginləşməsi, gələcək nəslə aşılanması istiqamətində əvəzsiz xidmətlərinə görə dəfələrlə mükafatlara layiq görülmüşdür. Belə ki, "Qafqazın müdafiəsinə görə" və SSRİ Elmlər Akademiyasının 220 illiyi ilə əlaqədar olaraq "Əmək igidliyinə görə" medalları, "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyinə görə" medalı (1946), anadan olmasının 50 illiyi ilə əlaqədar olaraq "Şərəf nişanı" ordeni və "Qabaqcıl maarif xadimi" nişanı (1958), "Qırmızı Əmək Bayrağı" ordeni (1967), Oktyabr İnqilabı ordeni (1978) ilə təltif edilmişdir. Həmçinin 1968-ci ildə Azərbaycan LKGİ MK-nın qərarı ilə "Bir gəncin manifesti" əsəri Respublika Lenin Komsomolu mükafatına, 1969-cu ildə Azərbaycan SSR "Əməkdar elm xadimi" adına layiq görülmüşdür.

Mir Cəlal Paşayev son dərəcə realist yazıçı olmuşdur. Bu gün belə onun əsərlərini oxuduqda təsvirlərin canlılığına və reallığına heyran qalmamaq mümkün deyil. Sanki həyat hadisələri, insanlar, heç yazıçı müdaxiləsi olmadan

birbaşa bədii əsərə köçürülüb. Amma belə deyil, Mir Cəlalın bədii nəsrindəki gerçəklik yazıçının bədii qüdrətiylə yaradılan gerçəklikdir.

Ədəbi aləmdə əvvəlcə şeir, sonra isə oçerk və hekayələri ilə tanınan Mir Cəlal Paşayev, az sonra istedadlı yazıçı kimi tanınmağa başlamışdır. 1928-ci ildə mətbuatda ilk şeirləri ("Dənizin cinayəti", "Ananın vəsiyyəti", "Müxbir") çap olunmuşdur. O, 1930–cu ildən etibarən hekayələr yazmağa başlamışdır. O dövrün "Şərq qadını", "Gənc işçi", "İnqilab və mədəniyyət", "Ədəbiyyat qəzeti" kimi nüfuzlu nəşrlərində "Həkim Cinayətov", "İfşa", "Mərkəz adamı", "Naxələf", "Bostan oğrusu", "Qüdrət nümayişi", "İstifadə", "Dəzgah qızı", "Heyrət"... hekayələrini çap etmişdir. 1932-ci ildə "Sağlam yollarda", 1935-ci ildə "Boy" adlı ilk oçerk və novella kitabları çap olunmuşdur. Ümumiyyətlə, indiyədək yazıçının 70-dən çox kitabı nəşr olunub.

"Dirilən adam" romanı 1935-ci ildə ayrıca kitab kimi nəşr olunmuşdur. Mir Cəlalın ilk irihəcmli əsəri olan "Dirilən adam" romanı dəfələrlə tənqidə məruz qalsa da, oxucular tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Mir Cəlal bu romanda Azərbaycan kəndlisinin oyanmasını, artıq istismar aləti olmaq istəməyib öz hüququnu tələb etməsini, bunun üçün də inqilabi mübarizəyə qoşulmasını təsvir etmişdir. "Dirilən adam" romanında lətifə-anekdot səviyyəsində olan bir əhvalatı sosial roman səviyyəsinə qaldırmış, bir kəndin timsalında müxtəlif sinfi-siyasi qruplaşmaları, ictimai zümrələri real və təbii cizgilərlə canlandırmışdır. Məsələ onda deyil ki, öz sevimli ailəsindən didərgin düşüb bir parça çörək dalınca şəhərə işləməyə gələn Qədir sonralar bolşeviklərə qoşulur, məsələ ondadır ki, o ayılır, mənəvi ölülük ictimai diriliyə çevrilir.



*Mir Cəlal və Püstə xanım. 1933-1934-cü illər.*

Əlli illik yaradıcılıq fəaliyyəti dövründə görkəmli nasir Azərbaycan ədəbiyyatı tarixində öz layiqli və şərəfli yerini tutmuşdur. Yazıçının yaratdığı əsərlər bütöv bir dövrün mənzərəsini əks etdirirdi. Azərbaycan ədəbiyyatının, bədii nəsrin ən gözəl nümunələrindən hesab olunan "Bir gəncin manifesti" romanı, ürəklərə yol tapan hekayələri yazıçının misilsiz xidmətlərinin bəhrəsi olmaqla yaddaşlara həkk olunmuşdur. Qəti əminliklə demək olar ki, təkcə "Bir gəncin manifesti" əsərinə görə Mir Cəlal klassik sənətkarlar sırasında dayanmaq haqqını qazanmışdır. Bu əsər çapdan çıxanda onun heç 30 yaşı belə yox idi. Milli ədəbiyyatımızın inciləri sırasında özünə yer alan, dəyişən zamanlarda belə təsir gücünü və əhəmiyyə-

tini itirməyən təkcə bir əsəri – “Bir gəncin manifesti”, müasirlərinin də dediyi kimi, Mir Cəlal Paşayevin roman yaradıcılığının zirvəsi hesab oluna bilər. Ziyalı alim, yazıçı, söz sənətkarının bu əsəri gənclər üçün əsl tərbiyə məktəbidir.

“Bir gəncin manifesti” romanı 1918-1920-ci illərdə Azərbaycan zəhmətkeşlərinin qəhrəman mübarizəsinə həsr olunmuşdur. İlk dəfə 1937-39-cu illərdə hissə-hissə “Revolyusiya və kultura” jurnalında nəşr olunan bu əsər yazıçının şah əsəri hesab olunmaqla ədəbi zirvəyə doğru istiqamət yaratmış, müəllifə geniş auditoriya kütləsi qazandırmışdır. 1940-cı ildə “Uşaqgəncnəşr”də kitab halında kütləvi tirajla buraxılan bu əsər oxucu tələbatına görə sonrakı illərdə də dəfələrlə çap edilmişdir. İnqilabdan əvvəl sadə xalqın vətəndaş şüurunun formalaşmasını əks etdirən “Bir gəncin manifesti” bu gün də qəlbləri riqqətə gətirir. Roman doqquz dəfə müxtəlif illərdə ayrıca kitab halında nəşr olunmaqla yanaşı, müxtəlif ölkələrin oxucuları tərəfindən böyük rəğbətlə qarşılandığından bir çox xarici dillərə tərcümə edilmişdir.

Şəksizdir ki, Böyük Vətən müharibəsində xalqın göstərdiyi misilsiz qəhrəmanlıq, dözümlülük və qələbə əzmi Azərbaycan bədii nəsrinin başlıca mövzulardan biri olmuşdur. Ağır müharibə şəraitində Mir Cəlal Paşayevin bədii yaradıcılığında bu operativliyi müşahidə etmək mümkündür. Belə ki, o, Vətənə olan sevgisindən ilhamlanaraq qələmə aldığı “Xalqın ürək sözü” (1941), “Vətən hekayələri” (1942), “İlyas” (1942), “İsrafil” (1942), “Vətən yaraları” (1943), “Vətən” (1944) və s. kitablarında, istərsə də dövri mətbuatda çap etdirdiyi hekayələrdə arxa və ön cəbhədə Azərbaycan xalqının faşizmə qarşı qəhrəmanlıq mübarizəsindən bəhs olunur. Azərbaycan xalqı-



*Rza Quliyev, Mir Cəlal və Mirzə İbrahimov Uzaq Şərqdə hərbi hissədə. 1942-ci il.*

nın dözümlülüyü, vətənə sədaqəti, qələbəyə inamı bu əsərlərin əsas məzmununu təşkil edir.

Böyük Vətən müharibəsindən əvvəlki dövrdə olduğu kimi, sonrakı dövrlərdə də Mir Cəlalın yaradıcılığı əsasən iki istiqamətdə inkişaf etmişdir. O, bir tərəfdən sovet ailələrinin xoşbəxt həyatını tərənnüm edir, o biri tərəfdən bu həyatın daha da gözəlləşməsinə mane olan köhnəliyə qarşı mübarizə aparırdı.

Daima sülh, asayiş, dinc, xoşbəxt həyat uğrunda mübarizə aparmağa çalışan, xalqın sevimlisi olan görkəmli nasir Mir Cəlal Paşayev böyük qələbə ilə nəticələnən ikinci dünya müharibəsindən sonrakı illərdə insanların qəlbində yaranan sevinc hislərini, yaşayıb yaratmaq sevgisini nümayiş etmək üçün yeni əsərlər üzərində işləməyə başlamışdı. “Od içindən çıxanlar” (1945) kitabında topladığı hekayələrdə cəbhədən qayıdan insanların sülh şəraitində yaratmaq eşqi öz təcəssümünü tapmışdır. Buna nümunə olaraq sülh, əmin-amanlıq, humanizm, yer üzün-

də insanların dinc yaşaması ideyasının təbliğ olunduğu "Çin qızı" (1950), "Sülh istəyənlərə" (1951), "Badam ağacları" (1953), "Ərəb qızı" (1962) və digər beynəlxalq mövzuda yazılmış hekayələrini göstərmək olar.

Müəllifin "Açıq kitab" romanında gənclərin köhnəliyə qarşı mübarizəsindən, "Yaşıdlarım" romanında Böyük Vətən müharibəsində xalqın göstərdiyi misilsiz vətənpərvərlikdən, "Təzə şəhər" romanında Sumqayıt şəhərinin qəhrəman qurucularının istehsalat nailiyyətlərindən bəhs olunur. Real həyat mənzərələrini və fəlsəfi düşüncələri əks etdirən "Həkim Cinayətov", "İclas qurusu" və "Anket Anketov" hekayələrindən parçalar bu gün də çox aktualdır.

Mir Cəlal Paşayevin yaradıcılığına nəzər saldıqda cəmiyyətdə mövcud olan reallıqları yaratdığı obrazlarının timsalında açıq şəkildə görmək mümkündür. Bir neçə hekayəyə nəzər salaq. Oxuculara maraqlı olan arqumentlərlə zəngin olan "Həkim Cinayətov" hekayəsində təsvir olunan "qəhrəman" bəlkə də həyatda yoxdur və varsa da tək-tükdür. Amma Mir Cəlal öz işinə səhlənkarlıqla yanaşan, insan sağlamlığının qeydinə qalmayan bir həkimin hərəkətlərinə elə məna verir ki, həmin həkim doğrudan da çox günahkar və cinayətkar kimi gözlərimiz qarşısında canlanır. Bəlkə də, bu, adi bir əhvalat təsiri bağışlayar ki, gənc tələbə Ramazan Əlizadə atasını xilas etmək üçün müalicəxanaya gəlir, həkim Cinayətova müraciət edir, amma həkim heç bir şey olmamış kimi etinasız qalır, otaqda qızlarla laqqırtı vurur, xəstənin yanına gedərkən küçədəki vitrinlərə tamaşa edir, nəhayət, xəstəni yoxlayarkən termometri unutduğunu görüb, "təkrar ağır addımlarla müalicəxanaya tərəf hərəkət edir".

"İclas qurusu" da satirik hekayələr səpgisində yazılmış və burada iclasbazlığa sonsuz meyl dürüst ifadə olun-

muşdur. Həyatda iclaslar, sənədlərlə baş qarışdırmağı, hətta ailədə tamamilə rəsmi davranmağı sevən insanlar vardır ki, onlar təbiətin təravətindən, gözəlliyindən, musiqidən, gülüşdən, şənlikdən xəbərsiz olurlar. Bu insanlar düşünürlər ki: "bütün cəmiyyət mühüm bir iclas zamanı qurulmuş və imzalanmış bir sənəddən ibarətdir". Bu insanların nəzərində həyatın hər bir yeniliyi iclas qaydalarını pozan bir qanunsuzluq kimi görünür. Onlar daimi bir narahatlıq, təlaş içərisində ömür sürürlər.

Həmiçinin, Mir Cəlal "Anket Anketov" adlı hekayəsində Anket Anketov simasında konkret və ümumi xüsusiyyətləri olan qüvvətli bədii-ictimai bir tip yaratmışdır. Anketovun kim olduğunu təhlil etdikdə gözümüzün önündə belə bir təsəvvür yaranır. O, insanlara, insan münasibətlərinə şəxsi işlərinə görə qiymət verir, sənəd varsa, deməli, o, kiməsə inana bilər. Adamlar onun nəzərində şəxsi ləyaqətinə, bacarığına görə deyil, şəxsi işlərinə görə qiymətlidir.

Şübhəsizdir ki, Mir Cəlal Paşayevin əsərləri bir neçə nəslin tərbiyəsində, maariflənməsində və dünyaya baxışının formalaşmasında mühüm rol oynamışdır. Yazıçının bədii əsərlərində yoxsulluq, sadə insanların həyatı daima diqqət mərkəzində olmuşdur. Yazıçı ürəyinin dərinliklərində kök salan nisgilləri, ağrı-acını ifadə etmək üçün can verdiyi qəhrəmanlar oxucuya güclü təsir edir, uzun müddət yaddaşlardan silinmir.

Həqiqət və səmimilik carçısı olan Mir Cəlal Paşayev ədəbiyyat tarixində bir sıra qiymətli əsərin müəllifi olmaqla yanaşı, Nizami, Füzuli, Sabir, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Səməd Vurğun kimi ədəbiyyatımızın görkəmli nümayəndələri ilə yanaşı Lev Tolstoy, Maksim Qorki, M.Şoloxov, Anton Çexov kimi böyük söz

sənətkarları haqqında da qiymətli elmi əsərlər, məqalələr yazmışdır.

Mir Cəlal yaradıcılığının, bədii üslubunun ən əsas fərqləndirici cəhəti olan təbiilik, səmimilik, mövzu rəngarəngliyi, orijinallıq onun Azərbaycan yazıçıları içərisində özünəməxsusluğu ilə fərqlənməsinin əsas səbəbidir. O, Azərbaycan ədəbiyyatı tarixində gözəl hekayələr ustası, yaddaşlara həkk olunan romanlar yaradıcısı, ədəbiyyatımızın tarixini, müxtəlif problemlərini işıqlandıran onlarla dəyərli tədqiqat əsərinin müəllifi kimi tanınmışdır.

XX əsrin ədəbi-elmi fikrinin korifeylərindən sayılan, yazıçı, ədəbiyyatşünas, filologiya elmləri doktoru, əməkdar elm xadimi Mir Cəlal Paşayev yaşadığı 70 il ərzində ömrünü Azərbaycan xalqının ədəbi-elmi və pedoqoji fikrinin inkişafına həsr etmişdir. O, çağdaş Azərbaycan tarixində ədəbiyyatşünas-nəzəriyyəçi alim kimi də müstəsna və özünəməxsus yer tutmuşdur. Filologiya təhsili alan tələbələrin I kursda istifadə etdiyi "Ədəbiyyatşünaslığın əsasları" dərsliyi sonralar mütəxəssislərin stolüstü kitabı olmuşdur. Mir Cəlal müəllim 1936–cı ildən ömrünün sonunadək dərs dediyi Bakı Dövlət Universitetinin auditoriyalarında bu fəndən mühazirələr oxumuşdur.

Mahir roman ustası olan Mir Cəlal Paşayev həm də "ədəbiyyata həyat gətirən" yazıçı adını qazanmışdır. Onun zəngin ədəbi-elmi irsi, halal əməyinin bəhrəsi olan yaradıcılığı hələ bundan sonra da çox nəsilləri tərbiyə edəcəkdir.

Böyük şəxsiyyət kimi tarixləşmiş, gözəl müəllim, görkəmli yazıçı, istedadlı ədəbiyyatşünas Mir Cəlal Paşayev 1978-ci il sentyabrın 28-də əbədiyyətə qovuşaraq Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur. Milli ədəbiyyat tariximizin parlaq səhifələrinin müəllifi olan əzəmətli

yazıçının bu böyük itkisi hər kəsin ürəyində dərin kədərə səbəb olmuşdur.

Məhəbbəti qəlblərdə yaşayan unudulmaz yazıçı və pedaqoq Mir Cəlal Paşayevin vaxtilə ürəklərdə yandırdığı çıraq yenə də eyni şövqlə alovlanmaqdadır. Həqiqətən də, xalq məhəbbəti qazanan insanlar heç vaxt unudulmurlar. Böyük şəxsiyyət kimi tarixləşmiş Mir Cəlal Paşayevin əziz xatirəsi mənsub olduğu millətin yaddaşında ədəbiyaşarlıq qazanmışdır. Hər il sentyabrın 28-də onu sevənlər bu nurlu insanı yenidən "kəşf" edir və onunla bağlı unudulmaz xatirələri yad edirlər.

Lakin illər ötdükcə Mir Cəlal Paşayevin təkcə elmi irsi deyil, onun həm də xeyirxahlığı, böyük müəllimliyi, bəşəri insanlığı heyranlıqla qarşılanır və əsl örnək olaraq sevilə-sevilə qəlblərdə özünə taxt qurur. O, bu zirvədəki yerini heç vaxt itirməyəcək və ona olan sevgi dünya durduqca var olacaqdır.

Mir Cəlal Paşayevin xatirəsini əbədiləşdirmək üçün ölkəmizin bir sıra yerlərində – küçə, məktəb, kitabxana, mədəniyyət evi hal-hazırda görkəmli sənətkarın adını daşıyır.

2007-ci ildə Gəncədə Azərbaycanın görkəmli ədibi Mir Cəlal Paşayevin xatirəsinə yaradılmış ev-muzeyinin açılış mərasimi keçirilmişdir. Mir Cəlal Paşayevin ev-muzeyində 300-dək eksponat və 80-ə yaxın kitab sərgilənir. Kitablar görkəmli ədibin övladları tərəfindən muzeyə hədiyyə edilmişdir.

Ailə üzvləri tərəfindən muzeyə ədibin şəxsi pasportu, orden və medalları hədiyyə edilmişdir. Hal-hazırda bu əşyalar muzeyin ən dəyərli eksponatlarındandır.

Mir Cəlal Paşayev Ev Muzeyinin Gəncə şəhərində fəaliyyəti təsədüfi deyil. Çünki, Mir Cəlal Paşayev cənubi







Azərbaycanda anadan olsa da, taleyi onu qədim Gəncə şəhərinə gətirib çixarmışdır. Uşaqlıq və gənclik illərinin ən unudulmaz anlarını burada keçirən ədib həmişə bu şəhəri sevmiş və özünün doğma şəhəri bilmişdir.

Həmçinin, Muzey kompleksində Elmi-Ədəbi Tədqiqat Şöbəsi də fəaliyyət göstərir. Şöbənin yaradılması ədəbiyyatımızın tədqiqinə, araşdırılmasına xidmət edir.

Mir Cəlal Paşayev Muzey Kompleksində mütəmadi olaraq şair və yazıçıların kitab təqdimatları, şəhər ziyalıları ilə görüş-konsertlər, şagird və tələbələr üçün ədəbiyyat dərsləri, ekskursiyalar və s. təşkil olunur.

Qeyd etdiyimiz kimi, bu gün təkcə Azərbaycanda deyil, onun sərhədlərindən kənarda da böyük ədibin həyat və yaradıcılığı geniş şəkildə öyrənilir və əsərləri xüsusi maraqla qarşılanır.

“YUNESKO-nun 2008-2009-cu illərdə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin qeyd edilməsi proqramına Azərbaycanla bağlı daxil olmuş yubileylərin keçirilməsi haqqında” Azərbaycan Prezidentinin 2008-ci il 31 yanvar tarixli Sərəncamına əsasən Parisdə, YUNESKO-nun iqamətgahında XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, alim, pedaqoq Mir Cəlal Paşayevin 100 illiyinə həsr olunmuş mərasim təntənə ilə qeyd olunmuşdur.





XX əsr Azərbaycan ədəbiyyatında, elmində müstəsna xidmətlər göstərən Mir Cəlal Paşayevin 100 illiyinin YUNESKO səviyyəsində qeyd olunması, ilk növbədə, Azərbaycan elminə, mədəniyyətinə və ədəbiyyatına dünya miqyasında verilən önəmin və dəyərin təzahürüdür.

Yüz illik yubileyi ölkəmizdə, eləcə də YUNESKO tərəfindən qeyd olunan görkəmli yazıçı, alim Mir Cəlal Paşayev adına mükafat da təsis olunmuşdur. Bu mükafatla Azərbaycanın elmi, ədəbi, mədəni və ictimai-siyasi həyatında böyük uğurlar qazanan ziyalılar təltif olunur.

Şübhəsizdir ki, Paşayevlər nəslinin ümumi təlim-tərbiyəsi Mir Cəlal Paşayevin nəcib, alicənab insani keyfiyyətləri ilə bağlıdır. Onun övladları və nəvələrində də bu ziyalı keyfiyyətləri görmək mümkündür.

Mir Cəlal Paşayev kimi görkəmli alim, yazıçı, gözəl insanın övladı, nəvəsi, ümumiyyətlə yaxını olmaq böyük şərəfə nail olmaqdır. Bu şərəfli ömrü fəxr hissi ilə yaşamaq Mir Cəlal Paşayevin övladları Arif Paşayev, Hafiz

*Mir Cəlal ailəsi ilə. Bakı, 1954-cü il.*



Paşayev, Aqil Paşayev, Ədibə Paşayeva və Elmira Paşayevanın qismətinə yazılmışdır.

Belə ki, 1934-cü il 15 fevralda Paşayevlər ailəsinə sevinc payı bəxş edən ilk övlad - Arif Paşayev dünyaya göz açmışdır. Bu Tanrının Mir Cəlala Paşayevə verdiyi ən böyük xoşbəxtlik idi. Mir Cəlal Paşayevin ilk sevinci olan Arif Paşayev layiqli övlad olmaqla yanaşı, ölkəmizin inkişafı, xalqımızın maariflənməsi uğrunda misilsiz xidmətlər göstərmişdir. Azərbaycanın görkəmli alimi,

*Mir Cəlal oğlu Arif ilə. 1958-ci il.*



pedaqoqu, elm və təhsil işçisi, ictimai xadim, Milli Elmlər Akademiyasının akademiki, Dövlət Mükafatı laureatı, bir sıra beynəlxalq akademiyaların həqiqi üzvü, fizika-riyaziyyat elmləri doktoru, professor Arif Mir Cəlal oğlu Paşayev eyni zamanda 300-dən çox elmi əsərin, 15-dən artıq kitab və monoqrafiyanın müəllifidir. Azərbaycanda elmin, təhsilin inkişafında yüksək xidmətləri olan akademik Arif Paşayev 2004-cü il fevralın 15-də vətənimizin daha bir yüksək mükafatına – Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir. 1996-cı ildən indiyədək "Azərbaycan Hava Yolları" Dövlət Konserni Milli Aviasiya Akademiyasının rektorudur.

Ailənin növbəti sevinci Hafiz Mir Cəlal oğlu Paşayev 1941-ci il mayın 2-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycanın Amerikada səlahiyyətli səfiri, Azərbaycan Diplomatik Akademiyasının rektoru olan Hafiz Paşayev, 100-dən artıq elmi əsərlərin, iki monoqrafiyanın, həmçinin yerli və dünya mətbuatında dərc edilmiş müxtəlif ictimai-siyasi mövzuları əhatə edən onlarla məqalələrin müəllifidir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Mir Cəlal Paşayevin kiçik oğlu Aqil Paşayev isə istedadlı olmaqla yanaşı gözəl şəxsiyyət, Vətənə, xalqa layiqli övlad olmuşdur. Ailənin sevimli nümayəndəsi olan Aqil dünyasını vaxtsız dəyişmişdir.

Görkəmli nasirin qızları – Ədibə və Elmira Paşayevalar Mir Cəlal Paşayevin əzəmətli yolunu davam etdirərək müəllimlik sənətinə yiyələnmişlər.

Mir Cəlal Paşayev mehriban ata, gözəl ailə başçısı olmuşdur. Musiqi kollecində fortepianodan dərs deyən

qızı – Əməkdar müəllim Elmira xanım Paşayeva onun haqqında söylədikləri:

“- Atam müdrik, təvazökar, obyektiv, sadə, səmimi, təmiz, insanpərvər adam idi. Öz davranışıyla biz övladlarına da həmişə nümunə olub. Heç vaxt üstümüzə səsini qaldırmaz, kobud söz deməzdi. Məmnuniyyətlə dərslərimizi başa salar, suallarımızı cavablandırardı. Atamız hərtərəfli biliyə malik idi. Duzlu söhbətləri, incə yumoru indi də yadımızdadır. Müəllim adına şərəflə yanaşır, tələbələrini çox sevirdi. Gəncləri incidən müəllimləri heç xoşlamazdı. İstedadlı tələbələr gözünün işığı idi, belələrinə hər cəhətdən qayğı göstərərdi. Öz geyim əşyalarından da aparıb imkansız tələbələrinə verərdi.

O, əsasən gecələr yazırdı. İş otağının divarına Səməd Vurğunun şəklini vurmuşdu. Bu insanın özünü də, yazdıqlarını da çox sevirdi. Əslən Cənubi Azərbaycandan olan atam sonralar Gəncədə yaşamış və Səməd Vurğunla da elə burada tanış olmuşdu. Sonralar bu əlaqə böyük dostluğa çevrilmişdi. Atam dostluqda da möhkəm, etibarlı insan idi. Yaxşı adamları heç vaxt itirmək istəməzdi. Xoşu gəlməyən adamlar barədə isə heç danışmazdı. Sanki beləlləri onun üçün yox idi. Tanınmış alimlər Mehdi Əliyev, Şəfayət Mehdiyev, Həmid Araslı, yazıçı Süleyman Rəhimov yaxın dostlarından idi. Anam Püstəxanımla evlənərkən şahidləri Mikayıl Müşfiq olub. Toylarında isə Cabbar Qaryağdıoğlu da iştirak edib. Onlar “Gənc işçi” qəzetində işləyərkən tanış olmuşdular. Anam gülçiçəyi çox sevib onları dibçəklərdə böyütdüyündən ona “Gül bəsləyən qız” hekayəsini ithaf etmişdi. İlk nəvəsi qızım Aytəkin olduğundan ona da həsr etdiyi hekayələri var. “Oğlum Arifə”, “Gözün aydın” kitabları da ailə üzvlərimizə ünvanlanıb.

Yeri gələndə tələbkar olmağı bacaran atamın müla-

yim xasiyyəti vardı, heç kəsin xətrinə dəyməzdi. Biz ailədə beş övlad idik - üç qardaş, iki bacı. Övladlarını həmişə mehriban görmək istəyirdi. İndi hamımız ailə başçısı olsaq da, aramızdakı əvvəlki mehribanlıq heç azalmayıb. Atam həmişə deyirdi ki, övladlarımın hər biri mənim üçün bir əsərdir. Həqiqətən də biz ondan çox cəhətləri götürmüşük. Atamızın müəllim şəxsiyyətinə olan böyük hörmətinin nəticəsidir ki, bacım Ədibə xanım da, mən də özümüzə müəllimlik peşəsini seçdik. Ailədə, evimizdə olduğu kimi, müəllimlikdə də atamızın qoyduğu ənənələri davam etdirməyə çalışırıq. Filologiya sahəsini Ədibə xanımdan başqa mərhum qardaşımız Aqil də seçmişdi.

Atam dünyasını dəyişəndə cəmi bir neçə ay idi ki, 70 illik yubileyi keçirilmişdi. Ömrünün son günlərində də onun üçün çox doğma olan universitetə gedib dərslərini deyirdi. Heç vaxt xəstə yatmayan Mir Cəlal ölümə qəfil tuş gəldi... 2008-ci ildə Mir Cəlalın 100 illik yubileyi UNESCO səviyyəsində qeyd olundu, əsərləri müxtəlif dillərə tərcümə edilib, onu tanıyanlar hələ də xatirəsini xoşluqla yad edib, xeyirxah əməllərindən danışırlar. Biz onun övladları olduğumuz üçün həmişə fəxr etmiş, özümüzü xoşbəxt sanmışıq."

Azərbaycanın böyük yazıçısı Mir Cəlal Paşayevin nəvəsi, Arif Paşayev və Aida İmanquliyevanın qızı Mehriban Əliyevanın ən parlaq keyfiyyəti onun nəcibliyidir ki, bu da onun daşıdığı böyük insanların geni ilə bağlıdır.

Ölkəmizin birinci xanımı, dövlət başçımızın sevimli ömür-gün yoldaşı, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Arif qızı Paşayeva milli-mənəvi dəyərlərimizin, azərbaycançılığımızın hərtərəfli yüksəlişi naminə göstərdiyi mütərəqqi xidmətlərinə, nail olduğu çoxsaylı uğurlarına görə daima fərqlənmişdir.



*Mir Cəlal oğlu Arif və gəlini Aidə ilə. 1959-cu il*

Alimlər və ziyalılar ailəsində doğulub tərbiyə alan Mehriban xanım bu gün xalqımız üçün sevimli el qızı, əziz bacı, etibarlı dost, mərhəmətli xeyriyyəçi, Azərbaycan həqiqətlərini yüksək tribunalardan dünyaya çatdıran fəal ictimai xadim, qədim və müasir mədəniyyətimizin dəyərli təəssübkeşi, zəhmətkeş millət vəkili, həyatın ağır sınaqlarına tuş gəlib həbsxanalara düşən, lakin etdiyi əməldən peşman olub həqiqət yoluna qayıtmağa hazır



*Mir Cəlal ailə üzvləri və nəvələri Aytəkin, Nərgiz, Mehriban, Altay ilə. 1967-ci il.*

olan on minlərlə vətəndaşı doğmalarına qaytaran ən ədalətli hakimdir.

Azərbaycan xalqının munis və nəcib keyfiyyətlərindən biri kimi uca tutulan ailəyə məhəbbət duyğuları Paşayevlər ocağını da hər zaman rövnəqləndirib. Ailəyə sevgi, ailə üzvlərinə ehtiram münasibətləri daim yüksək qiymətləndirilib. Bu nümunəvi ailə ənənələri yazılmamış ən güclü qanunlar kimi nəsildən-nəslə ötürülüb. Paşayevlər nəslinin başçısı, Mehriban xanımın babası, tanınmış yazıçı, ictimai xadim, professor Mir Cəlal Paşayev deyərdi: "Zəmanəmdə tərəfimdən xəlq olunmuş ən görkəmli əsər - mənim ailəmdir". Genlərlə övladlarının ruhuna keçən bu müqəddəs ənənə Mehriban xanımın qəlbində də özünə yer tapır: "Ailə mənim üçün hər şeydən əsasdır".

Mir Cəlalı yaxından tanıyanlar bir fikri müntəzəm olaraq vurğulayırlar ki, o, hər şeydən əvvəl, son dərəcə nurlu şəxsiyyət idi. Hansı məziyyətlərindən danışmaq

istəsən, insanın qəlbinə xoş hislər, emosiyalar daxil olur. Mənəviyyatındakı saflıq, təmizlik, halallıq, toxluq həyatda, elmdə, yaradıcılıqda, pedaqoji fəaliyyətdə və insanlara münasibətdə həmişə Mir Cəlal müəllimin ən etibarlı yol yoldaşı olmuşdur.

Mir Cəlal həmçinin, sayı-hesabı bilinməyən böyük bir filoloqlar ordusunun yetişməsi və formalaşmasında mühüm rol oynayan MÜƏLLİM idi. İndi Azərbaycanın bir çox məşhur filoloqlarının ustadı məhz Mir Cəlal müəllim olmuşdur. Onun təbiətində ustadlıq, yolgöstərənlik kimi ilahidən bəxş olunan xüsusiyyətlər vardı. O, həyatda da, ədəbiyyatda olduğu kimi, müdrik idi. Müdrik insanın isə söylədikləri quru nəsihət kimi yox, həqiqətə çağırış kimi səslənir.

17 il Bakı Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasına rəhbərlik edən Mir Cəlal müəllim tələbələrinin bir insan, vətəndaş, ziyalı olaraq yetişmələri üçün əlindən gələni etməyə çalışmışdır. Bu sadə və böyük ürəkli insan daima tələbələrinin ailə vəziyyəti, dolanışığı, problemləri ilə maraqlanar, onlara lazımi köməkliyi göstərər, istedadlı tələbələrinə məsləhətlər verər, mətbuatda çıxışlarına şərait yaradardı. Tələbələrinə həm layiqli müəllim, elmi rəhbər, həm də sirdaş, qayğıkeş ata olan Mir Cəlal Paşayevin yetirdiyi onlarla elmlər doktoru, professor hal-hazırda ali məktəblərdə mühazirələr oxuyur, elmi – tədqiqat müəssisələrində çalışırlar. Mir Cəlal müəllim tələbələrinə övlad münasibəti bəsləməklə dərin bilik vermiş, xeyirxahlıq nümunəsi sərgiləmişdir.

Ali məktəblərdə oxuyan zaman taleyinə Mir Cəlalın tələbəsi olmaq, onun mühazirələrini dinləmək nəsibi düşən insanların təsəvvüründə həqiqi müəllimin obrazı haqqında çox aydın qənaətlər formalaşır. Belə insanlar üçün



*Firudin Hüseynov və Mir Cəlal. ADU, 1978-ci il. Mir Cəlalın yubileyi.*

artıq "həqiqi müəllim necə olmalıdır?" sualına cavab axtarmaq lazım gəlmir.

Vaxtilə – İkinci Dünya müharibəsi dövründə universitetdə Mir Cəlal müəllimdən dərs almış xalq şairi Bəxtiyar Vahabzadə "Mənim müəllimim" adlı məqaləsində yazıb: "Mir Cəlal yaradıcılığının ən üstün cəhətlərindən biri də onun təmiz, şaqraq və büllur dili idi. Onun dili xalq danışıq tərzinə uyğun, son dərəcə canlı, təbii ifadələrlə zəngin və bədii dildir. Buna görə də istər elmi, istərsə də bədii əsərlərə ilk növbədə dilin təmizliyi, qüsursuzluğu, ən ümdəsi isə xəlqiliyi baxımından yanaşır, bu vacib şərtləri hamıdan tələb edirdi".

Ali təhsilimizin beşiyi sayılan Bakı Dövlət Universitetinin sevimli müəllimi, nüfuzlu professoru kimi daim ürəklərdə yaşayan, həqiqət, düzlük, səmimiyyət aşiqi, görkəmli yazıçı Mir Cəlal müəllimlə qeyri-ənənəvi müsahibəni tələbələrinin birini xatirələrindən sizə təqdim edirik.

i 1977-
. ,
, a -
, - -
,
, , -
.
,Mir Clal m llimin -
, m nim ,
-
X r
-

...

***– Siz xəyalınızdakı saf dünyanın adamı idiniz və hər kəsi bu saf dünyada görmək istəyirdiniz. Saf dünyanızı bir alim, pedaqoq və yazıçı kimi naqis insanlardan qurtarmaq istəyinizi də gizlətmirdiniz...***

*– Fikirləşirdim ki, Maarif Nazirliyi orta məktəb proqramlarına xüsusi bir insanlıq predmeti də daxil etməlidir. Qoy, uşaqlar kiçik yaşlarından insanlığın vəzifələrinə dərindən yiyələnsinlər. Bəlkə bu yolla naqis insanlardan xilas olduq.*

***– Sizin aydın, sadə cümlələrinizi "adam dilində" yazmaq tələbinizi indiyə qədər unutmamışıq...***

*– Xalq ədəbiyyatı həyatdan doğar. Gör, xalq fikrini deyəndə necə dəqiq deyir! Fikir, təfəkkür aydın, sadə olduğu kimi, yazı da, danışıq da, mühakimə də sadə, aydın və təsirli olmalıdır. Elmin də, sənətin də mündəricatı birdir. Elm sübut edir, sənət isə təsvir və tərənnüm edir. Tələbə və aspirantlarımdan da anlaşıqlı yazı, aydın danışıq gözləyib və tələb etmişəm. Demişəm ki, əgər fikrimizi iki sözlə bildirmək olarsa, on sözü bura yazmağın*

*nə mənası? Bəxtiyarın elmi rəhbəri olarkən ona demişdim ki, sən sağ əlini boynun kökündən hərləyib sol qulağını qaşıyırsan. Yəni "acam, mənə çörək ver" əvəzinə, "mənim yeməyə böyük təəşşüqüm var" deyirsən... Bu nə dildir, bala, adam dilində yazsana. Qardaş, bunu adam dilində de, görüm, nə deyirsən.*

***– Gənclərin yazıçılığa meylini niyə təqdir etmirdiniz?***

*– Deyirdim ki, küçədə kimi görürsən, qoltuğunda papka, deyir yazıçıyam, heç oxucuyam deyən yoxdur. Onlara demişəm ki, görürəm, hamınız qabiliyyətli uşaqlarsınız. Ədəbiyyatçı olmaq istəyinizi başa düşmürəm. Texnika əsrində yaşayırıq. Xalqa fiziklər, riyaziyyatçılar, kimyaçılar lazımdır. Mühəndislərə böyük ehtiyac var. XX əsr elm və texnika əsridir. Dəqiq elmlərə yiyələnənlər əsrin, gələcəyin açarını əlində tutacaqlar. Təbiəti öyrənin, təbiət dəryadır, böyük elmdir, təbiət insanı kamilləşdirir. Yazıçılıq üçün isə xüsusi universitet keçmək lazım deyil. Əgər istedad varsa, yazıçı olarsan. Ədəbiyyat tarixindən nümunələr göstərdi ki, ən gözəl yazıçılar heç də ədəbiyyat fakültəsini bitirməyiblər. Məsələn, Çexov həkim idi, amma ən məşhur yazıçı olmuşdur. Zəmanəmiz alimlər zəmanəsidir, şairlər yox. İnkişaf etmiş ölkələrdə şairlərin sayı bizimkindən çox-çox azdır. Müasir zəmanədə millətin avamlığı şairlərin sayı ilə tərs mütənasibdədir. İndiki cavanlar deyir elə hər şey məndən başlanır. Qardaş, uşaq anadan olanda, şəhadətnaməsinə yazsınlar "kandidat nauk", vəssalam, onsuz da gec-tez hamısı müdafiə edəcək. Mühazirələr dörd divar arasından o yana getmir, qalan kitab olacaq, gərək hər kəsin qulaqdan tutulası bir işi olsun. O da ki, kitabdır. Namizədlik elmin ilk addımıdır, əyər-əskiklərin*

*olması təbiidir. Doktorluq başqa. Onda nə qədər istəyirsiniz, qılıncınızı siyirərsiniz. Elmdə ağılla yanaşı cəsarət də lazımdır. Əgər bizim yazdıqlarımıza büt kimi baxacaqsınızsa, əlavələr etməyəcəksinizsə, havayı yerə zəhmət çəkib elmə yük olmayın. Onda bacardığınız işin qulpundan yapışın.*

***– Hüseyn Cavid yaddaşınızda necə qalıb? Deyirlər, Cavidin sizin yaradıcılığınızın müəyyənləşməsində xüsusi rolu olub?***

*– Cavid peyğəmbər kimi adam idi. İçərişəhərdə mənim mənzilimə tez-tez gələrdi. Bir dəfə gəlib mənim yazı-pozu ilə məşğul olduğumu görüb soruşdu ki, nə yazırsan? Dedim dissertasiya. Nədən? Dedim ki, Azərbaycan qadın şairlərinin yaradıcılığından. Komsomol, heç çernil-kağıza heyfin gəlmir, Füzulidən yaz ki, sənin də adın Füzuli ilə bərabər tarixdə yaşasın – dedi. Namizədlik dissertasiyası üzərində işləyirdim, bir də gördüm ki, Cavid əfəndi gəlir. Mənə yaxınlaşanda yenə də "Komsomol, nə yazırsan?" – deyə soruşdu. Cavid əfəndi biləndə ki, "Komsomol" və "Gəncliyin səsi" jurnallarında ədəbiyyat məsələlərini işləyirəm, bir an da ara vermədən təmkinli bir görkəmlə dedi: "Komsomol, elə mövzudan, elə sənətkardan yaz ki, o yaşadıqca sən də yaşayasan". Və əlavə etdi ki, "Füzulidən yaz, Füzulidən!" Mən Cavid əfəndinin nə demək istədiyini yaxşı başa düşdüm. Mövzunu dəyişdirdim. Füzulinin poeziyasını götürdüm. Çap etdirdiyim "Füzulinin sənətkarlığı" kitabı mənə Cavid Əfəndidən bir növ yadigardır. Bir dəfə ondan "Cavid əfəndi, siz həm mənzum, həm də mənsur pyeslər yazırsınız, hansını daha çox sevirsiniz, şeiri, yoxsa nəsri?" – deyə soruşdum. "Əgər müsahibim mənə şeirlə cavab verə bilsəydi, mən söhbəti də şeirlə edərdim" – dedi.*

***– 37-ci illəri necə xatırlayırsınız?***

*– O illər çox ağır, dəhşətli illər idi. Axşam bolşevik kimi yatardıq, səhəri menşevik kimi ayılardıq və ya tərsinə. Moskvada keçiriləcək Azərbaycan ədəbiyyatı və incəsənəti dekadasına hazırlıq gedirdi, adamlar müəyyənləşir, siyahılar tutulurdu. Tutulan siyahılar Azərbaycandan başqa Moskvada da təsdiq olunurdu. O siyahılarda Üzeyir bəyin adı yox idi. Onun adı başqa siyahıda idi. Ona "Qara siyahı" deyirdilər. Nə isə, siyahılar Moskvaya göndərilir və İ.V.Stalinə təqdim olunur. Stalin siyahını oxuyandan sonra soruşur: "A qde "Arşın mal alan?" Bu sözdən sonra Üzeyir bəyin adı o siyahıdan bu siyahıya salınır və dekadanın hörmətli nümayəndəsi kimi Moskvaya göndərilir. Üzeyir bəyi Stalinin bircə sözü, "A qde "Arşın mal alan?" xilas etdi". Onu şəxsən tanıyıb, tanımadığını deyə bilmərəm, amma onu bilirəm ki, 1915-ci ildə Stalin "Arşın mal alan"a Tiflisdə gürcü dilində baxmışdı.*

***– Səməd Vurğun ən yaxın dostlarınızdan olub...***

*– Azərbaycanı şeirə gətirən Səməd Vurğun oldu. Səməd əlli yaşında dünyada tanınan şair oldu, bir zaman onu bəyənməyən, şeirlərinə dodaq büzüb, eh, nədir ki, mən ondan yaxşısını yazacağam, deyən lovğalar elə yerində saya-saya qaldılar. Mənə deyərdi ki, Mir Cəlal, sənin bir böyük eyibin var, "sən slişkom poryadoçnı adamsan". Qardaş, bizim bəzi yazıçılar Səmədin sağlığında deyirdilər ki, guya onların şöhrətlərinə Vurğunun istedadı, nüfuzu mane olur. Guya o olmasa, çoxlu bayraqdarlar çıxıb Azərbaycan şeirinin bayrağını yüksəklərə qaldırarlar. Bəs nə oldu? Səməd neçə illərdir dünyasını dəyişib, bəs bu müddətdə necə oldu ki, bir yazıçı meydana gəlib, o yerdə qalmış bayrağı qaldırmadı? Qardaş, bunların hamısı boş söhbətlərdir. Sə-*



*Mir Cəlal Universitetin 1958-ci il məzunlarının bir qrupu ilə.*

*məddən sonra nəinki bir nəfər, hətta bütün yazıçıların hamısı da yığılsa, Səmədin poeziya bayrağını qaldıra bilməzlər, çünki Səmədi, Mirzə Cəlil demiş, zaman özü yaratmışdı.*

***– Siz mühazirələrinizdə Mirzə Cəlildən böyük məhəbbətlə danışardınız...***

*– Biz Mirzə Cəlilin "Poçt qutusu"ndan çıxmışıq. XX əsrdə Yaxın Şərqdə heç bir xalqın belə böyük adamı olmayıb. Bir dəfə professor Cəfər Xəndan kafedrada Mehdi Hüseynə Cəlil Məmmədquluzadənin yaradıcılı-*

*ğından xüsusi kurs vermişdi. Mühazirələri həvəslə oxuyan tənqidçi günlərin birində dərsdən çox əsəbi halda çıxdı. Kafedrada öyrəndik ki, auditoriyada ona bir tələbə belə bir sual verib: – Müəllim, axı, bu Mirzə Cəlildən nə qədər danışmaq olar? - Nə qədər ki, sən başa düşməmisən, danışmaq olar, – deyə Mehdi Hüseyn ona kəskin cavab vermişdi.*

***– Mirzə Cəlil fəlsəfəsini hamı eyni dərəcədə anlamırdı axı...***

*– "Cəlil Məmmədquluzadə filosof yazıçıdır" fikrinə qarşı çıxıb "onun sistemi yoxdur" söyləyənlərə bəs sizin fəlsəfi sisteminiz varmı ki, diplomunuza "filosof" yazdırırsınız? – demişəm. Mirzə Cəlil həmişə müasirdir. Mən isə Allahın verdiyi, gördüyünüz Mir Cəlalam. Mən istəsəm də Mirzə Cəlil ola bilmərəm...*

***– Mir Cəlal, Səməd Vurğun və Mehdi Hüseyn üçlüyü...***

*– Yaxşı dostları itirmişəm, təklənmişəm... Mehdi əqidəli, mənlikli adam idi, bilikli və hazırcavab idi. Səməd böyük nüfuz sahibi idi. Əlinə qələm alanda kağız korlamazdı.*

***– Bu üçlüyün macəraları çox olub, ən qəribəsini eşitmək istərdik.***

*– Bir dəfə axşamçağı Səməd zəng çaldı ki, ay Mir Cəlal, evdə neynirsən, geyin bir "İnturist"ə doğru gəl. Səmədin bir xasiyyəti vardı. Ziyafət olanda üzünü birimizə tutub deyərdi ki, hesabı sən kəs, biz getdik. Belə vaxtlarda xeyli pul götürərdik. Bəzən qonaq çox olurdu, Səməd tanıdıqları adamlardan da süfrəyə dəvət edərdi... "İnturist"in yeməkxanasına gəldim. Mehdi Hüseyn, Mirzə İbrahimov, Süleyman Rüstəm, Süleyman Rəhimov, Cəfər Xəndan... 7-8 nəfər olduq. Geniş süfrə açdılar, yedik, içdik. Amma hərə öz-özünə fikirləşdi ki,*

